# Dünya cizgi filminin əfsanəsi

## "Çeburaşkanın atası": Xoşbəxtlik asan əldə edilmir, ancaq resepti cox sadədir

**O təkcə "Çeburaşkanın atası" deyil, həmçinin epoxanı yaşayan insandır. Çətin dövrlərdən sağ çıxan, görkəmli insanlarla ünsiyyətdə olan, bir çoxumuzun böyüdüyü dünyanı yaradan bir sənətkardır. Və bir əsrdir ki, əlində qələm tutmaqdan yorulmayan bir sənətkar kimi nəsillərə örnək olan həyat sürür.**



Sovet və rus incəsənəti tarixində unudulmaz obrazlar yaradan 100 yaşlı yubilyar Leonid Şvartsman "hər personaj mənim bioqrafiyamın bir hissəsidir" - deyir. Əfsanəvi rəssam-multiplikator hər kəsin onun qəhrəmanlarını tanımasından qürur duyduğunu gizlətmir. Həqiqətən də onun multiplikasiya personajları milyonlarla insanın sevimlisidir. "Hansı obrazlarınızı daha çox sevirsiniz" - sualına görkəmli rəssam "bu, valideyndən "hansı uşağını daha çox istəyirsən" - deyə soruşmağa bənzəyir. Onlar mənim övladlarımdır, hamısı yaxın və doğmadır. Hər bir personajın yaranması müəyyən həyat şəraiti ilə bağlıdır" cavabını verir.

Həmkarı Norştyen yubilyarın yaradıcılığı haqqında danışanda deyir ki, Şvartsmanın hətta mənfi qəhrəmanları da qeyri-adi dərəcədə cazibədardır. Çünki o, hamısına müsbət tərəfdən yanaşıb.

Rəssam-rejissorun təkcə "Çeburaşka" cizgi filmi ilə bir neçə nəsil böyüyüb. "Timsah Gena", "Qar şahzadəsi", "Ehtiyatlı olun, meymunlar!", "Qızıl antilop", "Qav adlı keçi balası" və s. şedevr filmlər məhz Şvarsmanın sovet incəsənət tarixinə əvəzolunmaz töhfəsidir.

İndi Şvartsmanın 100 illik yubileyini şərəfləndirən çoxsaylı titulları və fəxri adları var. RSFSR Əməkdar rəssamı, Rusiyanın Xalq rəssamı, Moskva Animasiya Muzeyinin fəxri direktoru, əfsanəvi multfilmlərin müəllifi...

Leonid Aronoviç "Komsomolka"nın müxbiri ilə söhbətində keçmiş xatirələrindən söhbət açıb:

**- Leonid Aroniviç, siz xoşbəxtliklərlə dolu "Köhnə Minsk" silsiləsini yaratmısınız. Sizin uşaqlığınız xoşbəxt keçib, yoxsa onun haqqında xatirələriniz belə xoşbəxtdir?**

- 1927-ci ildə Minskdə məktəbə getdim. Dostlarımla həyətdə oynamağım indiki kimi yadımdadır. Təbii ki, köhnə Minsk haqqında xatirələrim unudulmazdır. Onlar demək olar ki, mənim bütün filmlərimə köçüb. Əgər filmdə şəhər varsa, demək, bu şəhərdir. Təsəvvür edin, doğma şəhərin obrazını multiplikasiya dili ilə öz həyatından keçirirsən. Əlbəttə, uşaqlıqla bağlı xatirələrin hamısı xoşbəxtdir. 20-30-cu illərdə Minsk çox sakit, mehriban bir şəhər idi. Balaca Nemiqa çayı evimizin yaxınlığından axırdı. Mən şəhərdə olanda artıq elektrik enerjisi işlədirdilər, at arabalarının əvəzinə küçələrdə tramvay işə düşdü. Ev işlərini kerosin lampası altında gördüyümüz vaxtları "Kerosin lampası altında" və "Məktəbdən qayıdan uşaqlar" rəsmlərimdə təsvir eləmişəm. Həmin günlər həmişə xatirimdədir.

**- Şəkillərin birində atanızla sinaqoqdasınız... 1920-1930-cu illərdə Minskdə "yəhudi məsələsi"ni hiss edirdinizmi?**

- Minskdə həmişə bir çox yəhudilər yaşayıb və bu məsələ heç vaxt orada qaldırılmayıb. Hər millətdən insanların çalışdığı və hətta yaşadığı "Soyuzmultfilm" studiyasındakı kimi. Çoxları üçün studiya bir ev halına gəldi, birlikdə çalışdılar və əyləndilər. Kommunal mənzillərdə ağır şəraitdə də olsa birgə yaşayırdılar. Millətlərin mehribanlığı vardı.

**- Rəssamlığa həvəsinizi nə zaman hiss etdiniz?**

- Bir çox uşaqlar kimi erkən rəsm çəkməyə başlamışam. Minskdəki bir sənət studiyasına getdim, amma əvvəlcə bunu ciddi qəbul etmədim. 1938-ci ildə qardaşımın yanında qalmaq üçün İncəsənət Akademiyasına daxil olmaqdan ötrü Leninqrada yollandım. O zaman 18 yaşım vardı. Kifayət qədər hazırlığım yox idi və məni Akademiyadakı sənət məktəbinə göndərdilər. Burada oxudum.

**- Və 1941-ci il...**

- Müharibə başladı və hər şey, ümumiyyətlə, hər şey dağıldı. Putilovski (Kirovski) zavodunda tornaçı işləməyə başladım. Qardaşım cəbhəyə çağırıldı, hava hücumlarında iştirak edirdi. Sonra mən çağırış aldım. Yoldaşlarımla hərbi çağırış komissarlığına gələrək səhərəcən gözlədik. Çaşqınlıq içində çağırış komissiyasının üzvlərinin oturduğu salona daxil odum və mənə nə vaxt baxacaqlarını soruşdum. Məlum oldu ki, mənim sənədlərimi itiriblər. Məni evə göndərdilər və işi tapan kimi zəng edəcəklərinə söz verdilər. Ancaq heç vaxt tapa bilmədilər... O gün çağırılan yoldaşlarımdan demək olar ki, heç kim sağ qalmadı.

**- Nadir bəxtiniz var...**

- Bəlkə də... Mən zavoda qayıtdım və tezliklə bizi Çelyabinskə evakuasiya etdilər. Mən Çelyabinsk Traktor Zavodunda işlədim. Zavod şəhərin kənarında yerləşirdi. Demək olar ki, şəhərin yarı camaatı orada işləyirdi. Vəziyyət ağır idi. İnsanlar milçək kimi qırılırdı. Müharibənin ilk qışı bütün SSRİ boyu çox ağır və dəhşətli keçdi. Həm Çelyabinskdə, həm də Leninqradda çətin idi. Sankt-Peterburqdakı mühasirədə anam və böyük bacımın kiçik qızı öldü, bacımın özü çətinliklə sağ qaldı.

**- Belə çıxır ki, Uraldan kənarda əmək cəbhəsində olduğunuz üçün şanslı idiniz?**

- Belə də demək olar. Əvvəlcə bir sexdə tornaçı işlədim və orada yalnız gəncliyim, fiziki gücüm sayəsində sağ qaldım. Sonra rəhbərlik rəssamlığa həvəsim olduğunu bilib məni zavodun vizual təşviqatına cəlb etdi. Düşünürəm ki, bunun sayəsində sağ qaldım...

**- Müharibədən sonra yenidən Rəssamlıq Akademiyasına daxil olmaq istədiniz?**

- Əlbəttə, Sankt-Peterburqa qayıtdım, Akademiyaya və eyni zamanda sənət şöbəsi üçün Kinematoqrafiya İnstitutuna müraciət etdim. Moskvadan dərhal imtahan çağırışı gəldi. Mən Kinematoqrafiya İnstitutunda kino rəssamı kimi oxumağa başladım. Əks təqdirdə, mən sadəcə rəssam olardım.

**- Belə çıxır ki, hər zaman tələb olunduğunuz peşəni seçdiniz.**

- Bu seçimimdə həlledici rolu "Pobeda" kinoteatrında izlədiyimiz Ualt Disney-in "Bambi" cizgi filmi oynadı. Bu, həyatımda gördüyüm ilk cizgi filmi idi. Tamaşaçılar göz yaşları axanacan gülürdü. Çoxları "Bambi" filmində real heyvanların çəkildiyinə inanırdı, amma mən artıq rəsmlə bağlı bir-iki şey bilirdim. Mən "Soyuzmultfilm"ə Kinematoqrafiya İnstitutunun məzunu kimi gəldim. Bu studiyaya çox klassiklər gəlib. 1948-ci ildə Mixail Volpin və Nikolay Erdmanın ssenarisi əsasında "Fedya Zaytsev" filmi üzərində işlədim. "Sirkdə qız" filmi üzərində isə rəssam assistenti kimi çalışdım.

**- Və birdən siz quruluşçu rəssam-rejissor multiplikatora çevrildiniz. Bu necə baş verdi?**

- Yəqin siz xatırlayırsınız ki, rejissor təkcə filmin yaradıcılarından biri deyil, bu onun ruhudur, qəlbidir. 1981-ci ildə mən artıq "38 tutuquşu" cizgi filmi üzərində işləyirdim. Rejissor Lev Tamanov isə "Qav adlı keçi balası" filminin 4-cü hissəsini çəkirdi. O qəfildən vəfat etdi. Məni dəvət edib hadisəni bitirməyimi təklif etdilər. Mən imtina edə bilmədim.

**- "Çeburaşka" obrazı böyük qulaqları ilə sevilməsinə görə məhz sizə minnətdardır.**

- "Çeburaşka" qeyri-adi bir varlıqdır. Obrazın yaranışı mənim əməyim idi. Amma Uspenskinin ədəbi qəhrəmanı olmasaydı, bu personaj da yaranmazdı. Cizgi filmi digər ölkələrdə nümayiş etdirilmək üçün tərcümə edildikdən sonra, planetin bütün guşələrində uşaqlar "Çeburaşka"nı tanıdılar. İngilis dilində onun adı Tople, alman dilində Kullerchen və ya Plumps, İsveçdə Druetten idi.

**- Siz uşaq multiplikasiyasına xidmətlərinizə görə ilk mükafatınızı Rusiyada deyil, ABŞ-da almısınız. Baxmayaraq ki filmləriniz Rusiyada nükafata namizəd göstərilirdi...**

- Bir halda ki verməyiblər, demək layiq deyilmiş. Mən "Billur ulduz"un arxasınca Nyu-Yorka özüm getdim. Tərcüməçimiz gözəl aktyor Oleq Vidov idi. Biz onunla dostlaşdıq. 80-ci illərdə o Amerikada yaşamağa getdi. Oleq Hollivudda bir çox filmlərə çəkildi. Qısası, sovet multfilmlərininin kolleksiyasını o yaratmağa başladı. Onun əməyi sayəsində "Çeburaşka" bütün dünyanı gəzdi. Baxmayaraq ki o zaman filmin lenti və səsləndirməsi zədələnmişdi, film böyük uğur qazandı.

**- İndiki cizgi filmlərini xoşlayırsınız?**

- Kompüterdə yaradılanları? Sevmirəm və düzü, izləmirəm.

**- Sizcə, xoşbəxt sənətkar olmaq çətindir?**

- Xoşbəxtlik asan əldə edilmir. Ancaq resepti cox sadədir. Kozma Prutkovun dediyi kimi: "Xoşbəxt olmaq istəyirsinizsə, xoşbəxt olmağa çalışın!" İnsan xoşbəxt bir xarakterə sahibdirsə, şərtlərdən asılı olmayaraq xoşbəxt olar. Sevdiyin işi görmək çox vacibdir. Axı bir çoxları sevmədiyi işə dözmək məcburiyyətindədir. Bu, adama hansısa məqamda karyera və ya pul qazandıra bilər, amma ruhuna, qəlbinə sakitlik bəxş edə bilməz. Ona görə çalışıb ilk növbədə işini sevməlisən. Bunu uzun illərin təcrübəsinə əsaslanıb deyirəm. Mən həmişə işimdən zövq almışam. Əgər yaxşı məhsul ortaya qoymaq istəyirsənsə, bunun üçün əziyyət çəkməlisən. Sevimli iş, xalqın sevgisi, qəlbin rahatlığı və xeyirxahlıq insan ömrünü uzadır.

**- 100 il yaşamağınızın sirri budurmu?**

- Ola bilər (gülür)...

**Rusiya mətbuatından tərcümə etdi**
**Təranə Məhərrəmova**